

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 63 (23.225)

6 aprel 2019-cu il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika



Bakının Kürdəxanı qəsəbəsində 810 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksi aprelin 5-də istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.

Görülən işlər barədə dövlətimizin başçısına məlumat verilib. Bildirilib ki, Bakı şəhərinin ərazisindəki yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış 810 məcburi köçkün ailəsi üçün Prezidentin 2011-ci ildə imzaladığı Sərəncama əsasən çoxmərtəbəli binalardan ibarət yeni yaşayış məhəlləsinin tikilməsi nəzərdə tutulub. Məhəllənin salınması üçün 15 hektar torpaq sahəsi ayrılıb. 2018-ci ilin mart ayında başlanan tikinti işləri yüksək keyfiyyətlə sona çatdırılıb. Layihə üzrə doqquzmərtəbəli 15 bina tikilib ki, bunlardan 9-u 54, 4-ü 36, digərləri isə 108 və 72 mənzillidir.

Sonra Prezident İlham Əliyev uşaq bağçasında və Şuşa rayon 7 nömrəli tam orta məktəbdə yaradılan şəraitlə tanış olub.

Sonra Prezident İlham Əliyev məcburi köçkünlərlə görüşüb.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

## Yeni texnika və texnoloji avadanlıqlar verilib



“Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətində torpaq mülkiyyətçilərinə lizinq yolu ilə kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq gətirilərək satılması davamlı xarakter alıb. O da qeyd olunmalıdır ki, müntəzəm olaraq həyata keçirilən bu tədbirin verdiyi bəhrələr ildən-ilə artır. Çünki texnika əkinçinin sağ əlidir və müasir dövrdə bu, daha böyük önəm kəsb edir.

Dünən cəmiyyət tərəfindən daha 55 nəfərə lizinq yolu ilə 75 texnika və texnoloji avadanlıq verilib. Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini Elşad Əliyev yeni texnika alanları təbrik edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən aqrar sahədə sistemli şəkildə həyata keçirilən kompleks islahatlar diyarımızda kənd təsərrüfatının davamlı və dinamik inkişafını təmin edib. Bu inkişafda müasir texnika və texnologiyaların tətbiqi də mühüm rol oynayır. Yeni texnologiyaların tətbiqi isə əl əməyini yüngülləşdirib və məhsuldarlığı artırıb.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu sahəyə göstərdiyi qayğı nəticəsində texnika parkımız tamamilə yeniləşib. Artıq dünyanın aparıcı ölkələrində istehsal olunan texnikalar və texnoloji avadanlıqlar bu gün bizim tarlalarımızda işləyir ki, torpaq mülkiyyətçiləri və fermerlər bu texnikalardan çox razıdırlar.

Vurğulanıb ki, muxtar respublikada kənd təsərrüfatı məhsullarının intensiv amillər hesabına artırılması üçün yeni innovativ texnikaların tətbiqi davam etdirilir. Bu məqsədlə ötən dövr ərzində “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən 2667 ədəd kənd təsərrüfatı texnikası alınıb. Alınmış texnikaların 2086-sı lizinq qaydasında mülkiyyətçilərə verilib.

Cəmiyyətin fəaliyyəti dövründə lizinqə verilmiş 2086 ədəd texnikaya görə 7 milyon 370 min manat güzəşt tətbiq edilib, 314 ədəd texnika və texnoloji avadanlığın dəyəri tam ödənildiyindən 207 sahibkara həmin texnikaların onların şəxsi mülkiyyətinə keçirilməsinə dair sənədlər təqdim olunub.

Baş nazirin müavini bildirib ki, 2019-cu ildə sahibkarların sifariş və tələbatları əsasında 10 kombayn, 66 traktor, 54 kotan, 12 çiləyici, 15 rotorlu otbiçən, 13 dırmıq, 12 gübrəsəpən, 20 kanalaçan, 15 qoyunqırxan aparat, 6 presvuran, 1 peyinsəpən, 5 taxılsəpən, 1 toxumtəmizləyən, 4 çizel, 4 dərmansəpən, 25 arpa-buğda qırma maşını, 10 yaş və quru otdoğrayan maşın, 2 əl üçün yer şumlayan və 17 dəst suvarma sistemi, ümumilikdə, 6 milyon 89 min manat dəyərində 292 texnika və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilib.

Qeyd olunub ki, texnikaların lizinq qaydasında mülkiyyətçilərə verilməsi əhalinin məşğulluğunun təmin olunmasında və onların ailə büdcələrinin artmasında əhəmiyyətli rol oynayıb.

Elşad Əliyev yeni texnika və texnoloji avadanlıqlar alan şəxslərə texnikalara müntəzəm texniki qulluq göstərməklə onlardan düzgün və səmərəli istifadə etməyin vacibliyindən danışaraq texnikaların dəyərinin vaxtında yığılmasının zəruriliyini diqqətə çatdırıb. Bildirib ki, bu, yeni texnikaların alınmasında başlıca amillərdən biridir. Həmçinin lizinqlə verilmiş texnikalardan səmərəli istifadə edərək dəyərini vaxtından əvvəl ödəmiş sahibkarlar tələbatlarına uyğun yeni texnikalarla təmin oluna bilərlər.

O da vurğulanıb ki, görülmüş işlərə görə qiymət artımına yol verilməməli, işlər təsdiq olunmuş qiymətlərlə yerinə yetirilməlidir. Baş nazirin müavini yeni texnika və texnoloji avadanlıqlar alanlara şum, əkin, biçin və digər aqrotexniki tədbirləri keyfiyyətlə aparmaqla məhsul bolluğuna nail olmağı arzulayıb.

✍ Muxtar MƏMMƏDOV

## Gənc polis əməkdaşlarının andiçmə mərasimi olub

*Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbində 2019-cu ilin II toplanış ilkin hazırlıq kursunu keçmiş gənc polis əməkdaşlarının andiçmə mərasimi olub.*



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni oxunub.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Təşkilat-İnspeksiya İdarəsinin rəisi, polis polkovniki Rəşad Seyidov çıxış edərək bildirib ki, daxili işlər orqanlarında xidmətə yeni qəbul edilən gənc əməkdaşlar müstəqil xidmətə başlamaları münasibətilə qəbul etdikləri bu anda sadiq qalmalı, polis adını daim uca tutmalıdırlar.

Nazirliyin Kadrlar şöbəsinin rəisi, polis kapitanı Səadət İsgəndərli çıxışında bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 5 mart tarixli Fərmanı ilə yaradılan Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbi kadr hazırlığı işində mühüm əhəmiyyətə malikdir. Hazırda məktəbin inzibati bina kompleksinin tikilməsi, əməkdaşların peşə hazırlığının yüksəldilməsi üçün dərs proqramlarının və təhsil müddətinin müasir dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilməsi və andiçmə mərasiminin Dövlət Bayrağı Muzeyində keçirilməsi göstərilən yüksək diqqətin bariz nümunəsidir.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Veteranlar Şurasının sədri Yusif Həsənov çıxışında gənc əməkdaşları təbrik edib. Sonra andiçmə mərasimi keçirilib.

Polis sıravisi Hüseyn Talıbov çıxış edərək gənc polis əməkdaşları adından yaradılan şəraitə və göstərilən etimada görə dövlətimizə minnətdarlıq edib.

Sonda Dövlət Bayrağı Muzeyində nümayiş etdirilən eksponatlara baxış olub.

✍ Nail ƏSGƏROV

## 23 yaşayış məntəqəsində əhaliyə səyyar xidmət göstərilib

*Muxtar respublikada daşınmaz əmlakın kadastrı və reyestrinin təkmilləşdirilməsi sahəsində ardıcıl fəaliyyətin təmin edilməsi, torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin gücləndirilməsi birinci rübdə də Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən diqqətdə saxlanılmışdır.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planına uyğun olaraq 14 ailə təsərrüfatına məxsus qeyri-yaşayış obyekti, 18 ailə təsərrüfatının həyətyanı təsərrüfat binaları və 12 təsərrüfatın icarəyə götürdüyü torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır. Naxçıvan şəhərinin Tumbul və Qaraxanbəyli kəndlərində, Şərur rayonunun Kürkəndində, Şahbuz rayonunun Badamlı qəsəbəsində və Babək rayonunun Yuxarı Uzunoba kəndində ailə təsərrüfatlarına məxsus daşınmaz əmlak obyektlərinin pasportlaşdırılması, əkin atlaslarına uyğun əkinlərin aparılması ilə bağlı maarifləndirici tədbirlər keçirilmiş, Kürkənd, Kürçülü, Sərxanlı, Qışlaqabbas, Püsyan və Qorçulu bələdiyyələrinin yeni hazırlanmış torpaqların qida maddələri ilə təminolunma kartoqramları aidiyyəti üzrə təqdim edilmişdir.

Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsində daşınmaz əmlak obyektlərinin pasportlaşdırılması başa çatdırılmışdır. 65 fərdi yaşayış evinin mülkiyyətçisinə hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış verilmişdir. Torpaqların elektron uçotunun aparılması məqsədilə Babək rayonunda və Şərur rayonunun Aşağı Daşarx, Aşağı Aralıq, Yuxarı Aralıq, Qarxun kəndlərində planaalma işləri başa çatdırılmış, 5403 daşınmaz əmlak obyekti plana alınmışdır. Naxçıvan şəhər inzibati ərazi vahidinin tərkibinə daxil olan Əliabad qəsəbəsində, 1 və 2 nömrəli sahə inzibati ərazi dairələrində mövcud mülkiyyət növləri üzrə torpaq sahələrinin elektron kadastr xəritəsi hazırlanmış, Babək rayonunun kəndlərində monitorinqlər aparılmış, torpaqlardan qanunsuz istifadəyə dair 120-yə yaxın fakt aradan qaldırılmışdır.

Cari ilin ilk üç ayı ərzində 1378 daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınmış, 1053 texniki sənəd hazırlanmışdır. Yeni yaradılmış 165 daşınmaz əmlak obyektinə ünvan verilmiş, Naxçıvan şəhəri üzrə 27 küçədə ünvan lövhələrinin və giriş nömrə nişanlarının quraşdırılması başa çatdırılmışdır. 195 torpaq sahəsinin plan-ölçüsü isə dövlət kadastr kitablarında qeydiyyata alınmışdır.

Komitənin səyyar xidmət qrupu tərəfindən muxtar respublika üzrə 23 yaşayış məntəqəsində 206 vətəndaşın müraciətinə baxılmış, 112 vətəndaşa elektron xidmətlər göstərilmişdir.

**Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

## Qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 35 əcnəbi aşkarlanıb

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, o cümlədən qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər 2019-cu ilin birinci rübündə də davam etdirilmişdir.

Ötən dövrdə xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan, habelə qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 35 əcnəbi aşkarlanmışdır. Həmin əcnəbilər barəsində Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müvafiq tədbirlər görülmüşdür. Ümumilikdə, ötən dövrdə Dövlət Miqrasiya Xidmətinə daxil olan 1642 müraciətdən 1359-u əcnəbilərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyata alınması, 178-i əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi, 2-si müvəqqəti yaşamaq üçün icazənin yenidən rəsmiləşdirilməsi, 8-i əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi, 95-i isə vətəndaşlıq məsələləri ilə bağlı olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir. Qeyd olunan müraciətlərin 590-ı xidmətin e-mail ünvanına və “Elektron hökumət” portalına daxil olmuşdur.

Ötən dövrdə Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq müxtəlif maarifləndirmə tədbirləri də həyata keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti**

Naxçıvan xarici mediada

# Böyük Britaniyanın “Wanderlust” jurnalı Naxçıvandan yazdı

*Azərbaycan barədə bələdçi kitabının müəllifi Mark Elliott Böyük Britaniyada nəşr olunan “Wanderlust” jurnalında Azərbaycanın turizm potensialını təbliğ edən “Bakıdan kənara səfər etmək üçün ən yaxşı yerlər” sərlövhəli məqalə yerləşdirmişdir. Məqalədə Azərbaycan Respublikasının ərazisində olan 6 mühüm ərazi haqqında məlumat verilir ki, həmin ərazilərdən də 3-ü Naxçıvan Muxtar Respublikasındadır. Məqalədən həmin hissələri təqdim edirik.*

***Naxçıvan Muxtar Respublikası***




Azərbaycan Respublikasından ayrı düşmüş Naxçıvanda çoxlu sayda görməli, maraqlı yerlər var. Tarixi 1186-cı ilə aid olan və oyulmuş daşlardan tikilmiş qüllətipli Möminə xatın türbəsi çox gözəldir. Həmçinin Naxçıvanda içərisində gecələməklə astma xəstəliyinin müalicəsi üçün istifadə olunan duz mədəni var. Ordubadın gözəl və yaşıl kəndlərində yerli əhali bahalı, həddindən artıq az şirinli və ləzzətli limonlar yetişdirir.

***Nuh Peyğəmbərin türbəsi***



Fərz edək ki, biz “İncil”də bəhs olunan Dünya tufanını tarixi hadisə olaraq qəbul edirik. Deyə bilərsinizmi, gəmi yerə dəydikdən sonra Nuh Peyğəmbər öz ailəsi ilə harada məskən salıb və yaşayıbdır? Azərbaycanlıların fikrincə, bu yer Naxçıvandır. Bunu sübut etmək üçün Nuh Peyğəmbərin qəbirüstü türbəsinə baxa bilərsiniz. Burada havanın aydın olduğu günlər şərqdən baxdıqda uzaq səmada üzən Fuji dağı kimi Ağrı dağının qarla örtülmüş konusvarı zirvəsini görmək mümkündür. Nuh Peyğəmbərin qəbri başdan-başa mavi rəngli kaşı ilə bəzədilmiş və üst hissəsi konusvarı formada əhatələnmiş türbədən ibarətdir.

***Azərbaycanın Maçu Piçusu olan Əlincəqala***



` Naxçıvanda dağın zirvəsində yerləşən Əlincəqala möhtəşəmdir. Sonu bitməyən pilləkənlərlə qalxaraq Əlincəqalanın tarixi qalıqlarına baxmaq olar. Bu qala Azərbaycanın Maçu Piçusu adlanır. Bu qaladan Haçadağın qeyri-adi, dişəbənzər zirvəsini və Araz çayı boyunca İran ərazisində yerləşən dağ silsilələrini görmək olar.

# Kurikulum islahatlarına həsr olunmuş elmi-praktik konfrans öz işinə başlayıb

*Naxçıvan Müəllimlər İnstitutunda “Ümumi təhsildə kurikulum islahatları: nəticələr, reallıqlar və perspektivlər” adlı elmi-praktik konfrans keçirilib.*



Tədbiri institutun rektoru, dosent Elbrus İsayev açaraq konfransın əhəmiyyəti və institutda fənn kurikulumlarının tətbiqi ilə bağlı görülmüş işlərdən danışıb.

Bildirilib ki, cari tədris ilində ölkəmizdə müstəqillik illərinin ən mühüm təhsil islahatlarından olan ümumi təhsildə kurikulum islahatlarının tətbiqi ilə tam orta təhsil almış ilk məzunlar müstəqil həyata qədəm qoyacaqlar. Onların əksəriyyəti builki tələbə qəbulu kampaniyasının yeni qaydaları əsasında ali təhsil müəssisələrinin tələbələri olacaqlar. Bu məzunların gələcək ali təhsilini düzgün qurmaq üçün ümumi təhsildə kurikulum islahatlarının ilkin nəticələrinin elmi-əməli cəhətdən təhlili, bu islahatların fərdin, cəmiyyətin və dövlətin dəyişən ehtiyac və tələbatlarına uyğunluq dərəcəsinin və gələcək perspektivlərin müəyyən olunması, kurikulumların tətbiqi sahəsindəki qazanılmış təcrübənin paylaşılması, təhsil strukturunun təkmilləşdirilməsi baxımından əhəmiyyətlidir.

Rektor qeyd edib ki, Naxçıvan Müəllimlər İnstitutunda muxtar respublikamızda müəllimlərin ixtisasartırması və təkmilləşdirilməsi, təhsilin bütün pillələri üzrə fəaliyyət göstərən pedaqoji ictimaiyyətin elmi-metodik təminatı ilə bağlı həyata keçirilməsi funksional vəzifələr sırasındadır. İnstitutda bu gün öz işinə başlayan elmi-praktik konfrans bu istiqamətdə reallaşdırılan əhəmiyyətli tədbirlərdəndir.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov konfransda çıxış edərək müasir dövrdə ümumtəhsil məktəblərində kurikulumun tətbiqi ilə bağlı yaradılan şərait və kurikulumun tətbiqindən sonra təhsildə qazanılan uğurlar barədə məlumat verib.

Vurğulanıb ki, muxtar respublikada təhsilin bütün sahələri dövlət qayğısı ilə əhatə olunub, müasir tələblərə cavab verən təhsil infrastrukturunun yaradılması istiqamətində mühüm tədbirlər həyata keçirilib. Təhsilə hərtərəfli dövlət qayğısı muxtar respublikada pedaqoji kadrlardakı təkmilləşmələr, fənn kurikulumları və təhsil standartlarının, distant təhsilin tətbiqi, informasiya-kommunikasiya texnologiyalarından istifadəyə geniş yer ayrılması bu sahədə əhəmiyyətli uğurlar qazanılmasına şərait yaradıb.

Qeyd olunub ki, ümumtəhsil məktəblərində kurikuluma keçid hazırlayan yeni imtahan modeli müəllimlərin məsuliyyəti və nüfuzunun artmasına ciddi təsir edəcək, bu gün keçirilən konfrans isə yeni yanaşmaları mənimsəyən və tətbiq etməyi bacaran kadrların işlərində mühüm əhəmiyyət daşıyacaqdır. Nazir muxtar respublikada təhsilin inkişafına göstərdiyi diqqət və qayğıya, müəllim əməyinə verdiyi yüksək dəyərə görə konfrans iştirakçıları və təhsil işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirib.

Daha sonra Naxçıvan Şəhər Təhsil Şöbəsinin Metodiki kabinetinin müdiri Sabir Məmmədov, Naxçıvan Müəllimlər İnstitutunun Təbiət və incəsənət fakültəsinin dekanı, dosent Rövşən Vəliyev, Pedaqogika və psixologiya kafedrasının baş müəllimi Tamara Baxşəliyeva, Ali riyaziyyat və informatika kafedrasının müəllimi Səminə Rüstəmova müxtəlif mövzularda məruzələrlə çıxış ediblər.

Konfrans sabah öz işini bölmə iclasları ilə davam etdirəcək.

**Güntac ŞAHMƏMMƏDLİ**

# Naxçıvan Regional Peşə Tədris Mərkəzi 10 ildə



*Naxçıvan Muxtar Respublikasında sahibkarlıq fəaliyyətinin ildən-ilə genişləndirilməsi, yeni sənaye, tikinti, xidmət və emal sahələrinin yaradılması əmək bazarında peşə təhsilli kadrlara olan tələbatı da artırmışdır. Ona görə də muxtar respublikada peşə təhsilinin inkişafı sahəsində ardıcıl tədbirlər həyata keçirilir, ən müasir maddi-texniki bazaya malik peşə məktəbləri inşa edilərək istifadəyə verilir, ixtisaslı kadr hazırlığının təmin olunması diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir:* ***“Peşə təhsili hər bir ölkə üçün ali təhsil qədər əhəmiyyətlidir. Çünki iqtisadiyyatın bütün sahələrində ali təhsilli mütəxəssislərlə yanaşı, peşə ixtisası olan kadrlara da böyük tələbat vardır”.***

Ötən dövrdə bu sahədə həyata keçirilən tədbirlər işaxtaran şəxslərin və gənclərin müvafiq peşələrə yiyələnərək məşğulluğunun təmin olunmasına, eləcə də müəssisə və təşkilatların, həmçinin özəl sektorun ixtisaslı kadrlarla təminatına öz müsbət təsirini göstərib. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə 2009-cu il aprelin 7-də fəaliyyətə başlamış Naxçıvan Regional Peşə Tədris Mərkəzində müdavimlərin təhsili üçün lazımi şərait yaradılmışdır. Mərkəzdə kabinələr, emalatxanalar, istirahət və elektron lövhəli otaqlar fəaliyyət göstərir. Kabinə və emalatxanalar əyani vəsaitlər, elektron lövhə otağı isə sürətli internet və tədris üçün videomateriallarla təmin edilib ki, bu da tədrisin keyfiyyətlə aparılmasında mühüm rol oynayır. Peşə hazırlığı kurslarının təşkili zamanı müəllim və müdavimlər kurslar üzrə müvafiq geyimlərlə də təmin olunurlar. Mərkəzdə 44 yerlik yataqxana, camaşırxana, yeməkxana, mətbəx, kitabxana fəaliyyət göstərir. Muxtar respublikanın rayonlarından gəlmiş müdavimlər qeydiyyata alınaraq gündə 3 dəfə pulsuz yeməklə təmin olunurlar. Naxçıvan Regional Peşə Tədris Mərkəzində tədris olunan kurslarda təhsil alan müdavimlərin istehsalat təcrübələri müvafiq olaraq istehsal sahələrində həyata keçirilir. Qeyd edək ki, bu günədək mərkəz tərəfindən təşkil edilən 243 peşə hazırlığı kursuna 3599 müdavim cəlb edilib.

Məşğulluğun təmin olunması ilə bağlı qəbul olunmuş Dövlət proqramlarının qarşıya qoyduğu vəzifələr daim diqqətdə saxlanılır. Həmçinin mərkəzdə muxtar respublikanın əmək bazarında tələbat yaranan və unudulmaqda olan peşələr üzrə kursların təşkilinə də xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 7 fevral tarixli “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi” haqqında Sərəncamının icrası ilə əlaqədar olaraq xalq tətbiqi və milli xalçaçılıq sənəti ənənələrinin inkişaf etdirilməsi üçün qalayçı, misgər və tənəkəçi, ağac üzərində oyma, toxucu, keçəçi və xalçaçı peşələri üzrə də kurslar təşkil edilib. Eyni zamanda ötən dövrdə kənd xidmət mərkəzlərinin kadr təminatı ilə bağlı verilmiş tapşırıqların icrasına uyğun olaraq dərzi sexləri, bərbərxana və qadın gözəllik salonlarında çalışmaq istəyən şəxslər də müəyyənləşdirilərək müvafiq peşələr üzrə kurslar təşkil olunub və kursu uğurla bitirmiş müdavimlər kənd xidmət mərkəzlərində müvafiq işlərə göndərilib. Xidmət sahələri üzrə bələdçi, ofisiant, lift mexaniki, fotoqraf, videooperator, aşpaz köməkçisi, çörəkçi kursları təşkil olunub, payız-qış mövsümünə hazırlıqla bağlı verilmiş tapşırıqların icrasına uyğun olaraq qazanxana maşinisti, qaz təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşə kurslarının təşkilinə xüsusi önəm verilib.





Muxtar respublikada sağlamlıq imkanları məhdud və hərbi xidmətdən yeni tərxis olunan şəxslərin peşə kurslarına cəlbi də diqqətdə saxlanılır. Həmçinin Naxçıvan Regional Peşə Tədris Mərkəzi tərəfindən də Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində xidmət və milli tətbiqi sənət sahələri üzrə təşkil olunmuş kurslara 151 məhkum cəlb edilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Elmi konfrans keçirilib



*AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə Azərbaycan elminin görkəmli nümayəndəsi, akademik Həmid Araslının anadan olmasının 110 illik yubileyinə həsr edilən elmi konfrans keçirilib.*

Tədbiri institutun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev açaraq Prezident İlham Əliyevin “Akademik Həmid Araslının 110 illiyinin qeyd edilməsi haqqında” 2019-cu il 11 fevral tarixli Sərəncamının əhəmiyyətindən danışıb.

“Akademik Həmid Araslının həyat və fəaliyyəti” mövzusunda məruzə ilə çıxış edən Əbülfəz Quliyev görkəmli alimin Azərbaycan ədəbiyyatşünaslığının müxtəlif istiqamətləri üzrə elmi fəaliyyətinə ətraflı nəzər salıb.

Bildirib ki, ədəbiyyatşünaslıq tariximizdə özünəməxsus yaradıcılığı ilə seçilən akademik qədim və orta əsrlər Azərbaycan ədəbiyyatının tədqiqi, klassik irsin nəşri, şifahi xalq yaradıcılığının öyrənilməsi sahəsində böyük xidmətlər göstərib, onun elmi fəaliyyəti yüksək qiymətləndirilib.

Tədbirdə institutun əməkdaşlarından dosent Ramiz Qasımov, filologiya üzrə fəlsəfə doktorları Nərgiz İsmayılova və Aytən Cəfərovanın görkəmli akademik, folklorşünas Həmid Araslı ilə bağlı məruzələri dinlənilib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# Sertifikatlar təqdim olunub



*Aprelin 3-də Naxçıvan Biznes Mərkəzində “İqtisadi siyasətə təsir təhlillərinin qiymətləndirilməsi” mövzusu üzrə təşkil olunmuş seminar öz işini yekunlaşdırıb.*

Seminar iştirakçılarına sertifikatların təqdim olunması mərasimində çıxış edən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun direktoru, iqtisad elmləri doktoru, professor Vilayət Vəliyev bildirib ki, bu tədbirdə iştirak edən Naxçıvan Dövlət və “Naxçıvan” universitetlərinin iqtisadçı müəllim tələbələrindən ibarət 100-dən artıq iştirakçıya müasir iqtisadiyyatın aktual problemlərindən olan sahələrarası əlaqələrin təhlili və qiymətləndirilməsi, iqtisadiyyatın tarazlı inkişafına təsirlərin təhlili, makroiqtisadi təsirlərin qiymətləndirilməsi və proqnozlaşdırılması, investisiya layihələrinin səmərəliliyinin qiymətləndirilməsi, biznes planların tərtibi, investisiyaların səmərəlilik göstəricilərinin müəyyən edilməsi mövzularında çıxışlar təqdim olunub, onları maraqlandıran suallar cavablandırılıb. O, keçirilən seminarın Naxçıvan Muxtar Respublikası iqtisadiyyatı üçün faydalı olacağına əmin olduğunu bildirərək, iştirakçılara gələcək təhsildə və iqtisadiyyatın müxtəlif sahələri üzrə elmi tədqiqatlarda uğurlar arzulayıb.

**Əli CABBAROV**



*7 aprel Ümumdünya Sağlamlıq Günüdür*

# İnsan sağlamlığı əsas məsələdir

*7 aprel Ümumdünya Sağlamlıq Günü kimi qeyd olunur. Bu tarix 1948-ci il aprelin 7-də BMT-nin xüsusi agentliyi kimi yaradılan Ümumdünya Səhiyyə Təşkilatının fəaliyyətə başlaması ilə əlaqədardır.*

Ölkəmizdə səhiyyənin cəmiyyət və dövlət həyatında ən mühüm sahəyə çevrilməsi xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimiz səhiyyəni cəmiyyət və dövlət həyatında ən mühüm sahə kimi diqqətdə saxlamış, ölkəmizdə kompleks səhiyyə quruculuğunun əsasını qoymuşdur. Bu gün dövlət başçısı cənab İlham Əliyevin ulu öndərin müəyyənləşdirdiyi yolu uğurla davam etdirməsi səhiyyə sisteminin də inkişafına səbəb olub. Muxtar respublikada da əhalinin sağlamlığının qorunması diqqət mərkəzində saxlanılır. Son illər tikilərək və ya yenidən qurularaq istifadəyə verilən, ən müasir tibbi avadanlıqlarla təchiz olunmuş xəstəxanalar, dispanserlər, həkim ambulatoriyaları insan amilinə verilən dəyərin daha bir ifadəsidir.





Muxtar respublikanın səhiyyə sistemində aparılan quruculuq işlərinin və islahatların əhatə dairəsi xeyli genişlənmişdir. Sədərək Rayon Mərkəzi Xəstəxanası, Duzdağ Fizioterapiya Mərkəzi, Darıdağ Arsenli Su Müalicəxanası, Diaqnostika-Müalicə Mərkəzinin publik hüquqi şəxsə çevrilməsi, ötən ildən Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqi səhiyyə xidmətlərinin müasir tələblər səviyyəsində təşkilinə hesablanıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şərur rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 25 yanvar tarixli Sərəncamı və "Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 18 mart tarixli Fərmanı muxtar respublikada icbari tibbi sığortanın tətbiqi və əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Muxtar respublikada dispanserizasiya işini yaxşılaşdırmaq, əhalini kütləvi müayinələrdən keçirmək, ucqar kəndlərdə və yaylaqlarda əhaliyə yüksəkixtisaslı səhiyyə xidmətləri göstərmək məqsədilə həkim briqadaları tərəfindən də yerlərdə müayinə-müalicə işləri aparılır. Təhsil işçiləri arasında süd vəzi xərçənginin vaxtında aşkarlamaq üçün profilaktik kütləvi müayinələr, ilkin vərəm xəstəliyinin vaxtında aşkarlanması məqsədilə kiçikyaşlı uşaqlar arasında tuberkulin və diaskin test sınağı, yuxarı sinif şagirdləri və müəllimlər arasında flüoroqrafiya müayinəsi və məktəbyaşlı uşaqların kütləvi oftalmoloji, stomatoloji, ortopedik, endokrinoloji müayinələri davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın icrası uşaqların sağlamlığının qorunması sahəsində işlərin həcmini və keyfiyyətini artırmışdır. Uşaqlara göstərilən tibbi xidmət səviyyəsinin yüksəldilməsi, icbari dispanserizasiyanın aparılması və uşaq ölümünün azaldılması istiqamətində uğurlu nəticələr əldə edilib. Həkim ambulatoriyalarının, feldşer-mama məntəqələrinin yenidən qurulması, yeni avadanlıqlarla təmin edilməsi, Şərur Rayon Uşaq Xəstəxanasının yaradılması, binanın müasir üslubda yenidən qurulması və müasir avadanlıqlarla təchiz edilməsi dövlət proqramının icrası istiqamətində görülən işlərdəndir.

Dispanserizasiya zamanı aparılmış müayinə və müalicə, sağlamlaşdırıcı tədbirlərin elektron qeydiyyatının aparılması və dispanserizasiya ilə əhatə olunmuş uşaqların registrinin təkmilləşdirilməsi üçün səhiyyə informasiya sistemi yaradılmış və Səhiyyə Nazirliyində dispanserizasiyadan keçən uşaqların elektron qeydiyyatına inteqrasiya edilmişdir.

Muxtar respublikanın səhiyyə müəssisələrində xroniki böyrək çatışmazlığından əziyyət çəkən xəstələrin aktiv müalicəyə cəlb edilməsi, eləcə də xəstələrin dövlət vəsaiti hesabına ixtisaslaşdırılmış müalicə ilə təminatı daim nəzarətdə saxlanılır. Bu günədək şəhər və rayon xəstəxanalarında 34 hemodializ aparatı qurulub. Yaradılmış təminat hesabına hazırda Naxçıvan şəhəri ilə yanaşı, rayon mərkəzi xəstəxanalarında 123 xəstə hemodializ seansı alır. Həyata keçirilən tədbirlər nəticəsində şəkərli diabet xəstələrinin dərman və özünə nəzarət vasitələri ilə təminatı xeyli yaxşılaşıb. Son illər strateji əhəmiyyətli məsələ kimi, qan xidmətinin inkişafına da xüsusi diqqət yetirilir. Hazırda Naxçıvan Muxtar Respublika Xəstəxanasında mövcud şərait Mərkəzi Qan Bankının fəaliyyətinə geniş imkanlar açıb. Qan Bankında qan komponentlərinin alınması və uzun müddət saxlanılması üçün hər bir şərait yaradılmış, talassemiya və hemofiliyalı xəstələrin hərtərəfli müalicəsi təmin edilmişdir.

Ən mühüm uğurlardan biri də xəstəxanaların müasir avadanlıqlar və təcili yardım avtomobilləri ilə təmin olunmasıdır. Ötən il noyabrın 24-də Naxçıvan Muxtar Respublikasının səhiyyə müəssisələrinə 15 təcili tibbi yardım avtomobilinin təqdim olunması bu xidmətin təşkilində keyfiyyətcə yeni mərhələ açıb. Muxtar respublika rəhbərinin göstərişi ilə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi Ekstrakorporal Membran Oksigenasiyası kimi insan həyatı üçün mühüm olan cihazla təmin edilib. Səhiyyə müəssisələrimizdə dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıqlarla müayinə və müalicə işləri aparılır. Səhiyyə müəssisələrində Təcili yardım, Elektrokardioqrafiya, Exokardioqrafiya, EKQ-tredmil, Rentgen, Çoxprofilli diaqnostika, Hemodializ, Cərrahiyyə, Kardiocərrahiyyə şöbələri, çoxsaylı aparat və avtoanalizatorla təchiz edilmiş laboratoriyalar, pulmonoloji, stomatoloji, burun-qulaq-boğaz, oftalmoloji, terapevtik, ginekoloji kabinələr fəaliyyət göstərir. Şöbə və kabinələrdə qurulmuş müasir aparat və cihazların köməkliyi ilə müxtəlif üzv və sistemlərin hərtərəfli müayinəsi mümkündür. Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzində Polimeraz zəncirvarı reaksiyası (PZR) üçün termik dövr cihazından istifadəyə başlanılması səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində növbəti uğurlardan biridir.

Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzində quraşdırılan Angioqrafiya aparatı xəstələrin müayinə və müalicə səviyyəsini yüksəldib.

Yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə daim dezinfeksiya və dezinseksiya tədbirləri, larviolla delervasiya aparılır. Bunun nəticəsidir ki, muxtar respublikada kəskin və təhlükəli yoluxucu xəstəliklər müşahidə olunmur. Muxtar respublika ərazisində hepatit B və C virus infeksiyalarının qarşısının alınması sahəsində də tədbirlər genişləndirilmişdir. Nikaha daxil olmaq istəyənlərin öncədən tibbi müayinədən keçirilməsi, ekspres üsulla hepatit, QİÇS və digər yoluxucu xəstəliklərə görə yoxlanılması davam etdirilir.



Naxçıvanda səhiyyə turizmi də diqqətdə saxlanılan məsələlərdəndir. Duzdağ Fizioterapiya Mərkəzinin, Darıdağ Arsenli Su Müalicəxanasının və Ağbulaq İstirahət Mərkəzinin imkanları hesabına təşkil olunan müalicə turizmi xidmətləri muxtar respublikanın ümumi turizm potensialının mühüm bir hissəsini təşkil edir. Duzdağ Fizioterapiya Mərkəzi hər il orta hesabla 4 min xəstə qəbul edir. Mərkəzdə ölkəmizin bir çox yerlərindən, o cümlədən Türkiyə, Gürcüstan, Ukrayna, İran, Rusiya, Tacikistan, Qazaxıstan, Almaniya, Hollandiya, Avstriya və İngiltərə kimi xarici ölkələrdən gələn insanların yuxarı tənəffüs yolları xəstəlikləri müalicə olunur. Darıdağ Arsenli Su Müalicə və İstirahət Kompleksinin inşası da səhiyyə turizminin inkişafında yeni mərhələnin əsasını qoyacaqdır. Artıq muxtar respublikada ötən ildən sanator-kurort müalicələrinə başlanılıb. Bakı və Sumqayıt şəhərlərindən əlilliyi olan şəxslər 10 gün müddətində Duzdağ Fizioterapiya Mərkəzi, Darıdağ Arsenli Su Müalicəxanası, Diaqnostika-Müalicə Mərkəzində "Şorsu" palçığı ilə və digər fizioterapevtik üsullarla müalicə alıblar.

Bu gün fizioterapiya ilə müalicənin rayon və kənd səhiyyə müəssisələrində də aparılmasına şərait yaradılıb. Ali Məclis Sədrinin tapşırığı ilə fizioterapevtik müalicələr üçün avadanlıqlar alınaraq 51 kənd həkim ambulatoriyasında qurulub. İndi, hətta ucqar dağ və sərhəd kəndlərində xəstələrin elektroterapiya və ultrasəslə müalicə, ultrayüksəktezlikli cərəyanla, parafinlə, Solyusk lampası ilə müalicə aparatları vardır.

Səhiyyə müəssisələrinin tibbi kadrlara olan tələbatının ödənilməsi sahəsində tədbirlər davam etdirilir. Naxçıvan Dövlət Universitetində Tibb fakültəsi üçün korpusun, Naxçıvan Tibb Kollecinin müasir tələblər səviyyəsində yenidən qurulması, ixtisasların sayının artırılması səhiyyə müəssisələrinin ixtisaslı tibbi kadrlarla təminatına imkan verir. Tibb mütəxəssislərinin bilik və bacarıqlarının daim yüksəldilməsi üçün müvafiq mexanizmlər yaradılır, o cümlədən xarici ölkələrdə təlimlər təşkil edilir. Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin sertifikasiyasının aparılması, səhiyyə işçilərinin müasir elmi biliklərinin artırılması üçün müxtəlif profilli elmi-praktik seminar və konfransların təşkili diqqət mərkəzində saxlanılır.



Hazırda muxtar respublikanın səhiyyə müəssisələrində hər ay minlərlə insan ambulator və stasionar müalicə olunur. İndi yerli həkim kadrları tərəfindən müstəqil şəkildə TUR, açıq ürək, ürək damarlarına stend qoyulması, laparoskopik, LOR, göz və digər mürəkkəb cərrahiyyə əməliyyatların aparılmasına nail olunub. Artıq mürəkkəb cərrahi əməliyyatların da Naxçıvanda həyata keçirilməsi əhalinin müayinə və müalicə üçün başqa ölkələrə üz tutmasının qarşısını alıb. Aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələri çərçivəsində açıq ürək əməliyyatları, koronarangioqrafiya manipulyasiyası, ürək damarlarına stend qoyulması, müxtəlif göz və digər əməliyyatların aparılması uğurla davam etdirilir. Sosial layihələr çərçivəsində təkcə 2018-ci ildə yüksəkixtisaslı həkim heyəti tərəfindən, ümumilikdə, 662 cərrahi əməliyyat, o cümlədən 9 ürək qüsuru olan uşaqda əməliyyat, 134 xəstədə göz və 519 xəstədə digər müxtəlif əməliyyatlar aparılmışdır.

Muxtar respublikada əhali sağlamlığının və rifahının yüksəlişi, tibbi xidmətlərin keyfiyyətinin və əhatəliliyinin artırılması 1 yaşa qədər ölən uşaqların sayı üzrə göstəricini kəskin şəkildə aşağı salıb. Səhiyyənin inkişafı, əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminatı və digər bu kimi mühüm tədbirlər əsas demoqrafik göstərici olan doğulanda gözlənilən ömür uzunluğunun artımına ciddi təkan verib. Belə ki, 1995-ci ildə muxtar respublikada orta ömür uzunluğu 69 yaş təşkil edirdisə, indi bu göstərici 78,6 yaş səviyyəsindədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Hansı cəmiyyətdə sağlam insan çoxdursa, o cəmiyyətdə inkişaf davamlı olur. Bu səbəbdən də insan sağlamlığı dövlətimizin qarşısında duran əsas vəzifələrdəndir. Dövlət bu işdə üzərinə düşən vəzifələri yerinə yetirir, müasir səhiyyə müəssisələri tikərək əhalinin istifadəsinə verir. Səhiyyə işçiləri isə yaradılan şəraitdən səmərəli istifadə etməli, sakinlərə nümunəvi xidmət göstərməlidirlər".***

*Ölkəmizdə, eləcə də muxtar respublikamızda aparılan genişmiqyaslı islahatlar göstərir ki, səhiyyə sistemi sürətlə inkişaf edir, müasirləşir. Tikilən, qurulan nə varsa, əhalinin sağlamlığının qorunmasına, orta ömür müddətinin uzanmasına xidmət edir. Muxtar respublikanın tibb işçiləri bundan sonra da səhiyyənin inkişafına və əhalinin sağlamlığının qorunmasına öz töhfələrini verəcəklər.*

## Naxçıvanda mürəkkəb neyrocərrahiyyə əməliyyatı yerli cərrah tərəfindən uğurla icra olunub

***Naxçıvan Muxtar Respublika Mərkəzi Xəstəxanasının baş həkiminin müavini, neyrocərrah Ramazan Abbasov tərəfindən aparılan neyrocərrahiyyə əməliyyatı uğurla nəticələnib.***

Xəstəxanaya gətirilən Kəngərli rayonunun Yurdçu kənd sakini, 79 yaşlı Feyzulla Əliyevə beyin qanaması (xroniki subdural hematoma), sol tərəfin iflici (hemipilegiası) diaqnozu qoyulub. Xəstədə yüksək təzyiqlə yanaşı, şəkərin 400 milliqram-faiz səviyyəsinə yüksəlməsi də müşahidə edilib. Onun hərəkət və danışıq qabiliyyəti tamamilə məhdud olub.

Xəstə yaxınları Naxçıvanda mürəkkəb tibbi əməliyyatların aparılması üçün kifayət qədər əsaslı maddi-texniki bazanın olduğunu vurğulayaraq xəstənin yüksəkixtisaslı yerli cərrahlar tərəfindən tibbi əməliyyat olunmasını xahiş ediblər.

Reanimasiya şöbəsinə yerləşdirilən xəstəni burada şöbənin həkimi Elsevər Ağaliyev əməliyyata hazırlanılma məqsədilə müalicə edib. Neyrocərrah Ramazan Abbasovun apardığı uğurlu tibbi əməliyyat nəticəsində xəstənin beyni üzərində toplanmış, təxminən, 150-200 milliqram həcmində qan təmizlənib.

Əməliyyat uğurla başa çatdıqdan sonra xəstənin hərəkət və danışıq qabiliyyəti bərpa olunub. Hazırda onun vəziyyəti qənaətbəxşdir.

Naxçıvan Muxtar Respublika Mərkəzi Xəstəxanasında yerli neyrocərrah tərəfindən aparılan bu tibbi əməliyyat Naxçıvan səhiyyəsinin növbəti uğuru kimi qiymətləndirilir. Bu, muxtar respublikada səhiyyənin inkişafına göstərilən yüksək dövlət qayğısının, səhiyyə işçilərinin peşəkarlıq səviyyələrinin artırılması istiqamətində həyata keçirilən tədbirlərin nəticəsidir. Vaxtilə müayinə və müalicə üçün başqa yerlərə üz tutan muxtar respublika sakinləri bu gün Naxçıvanda səhiyyə xidmətləri ilə tam əhatə olunurlar.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Ümumdünya Sağlamlıq Günü ilə bağlı tədbir



*Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə 7 aprel – Ümumdünya Sağlamlıq Günü ilə əlaqədar “Sağlam həyat tərzi sağlam ailələrin formalaşmasının təminatıdır” mövzusunda tədbir keçirilib.*

Gənclərin iştirakı ilə dəyirmi masa arxasında keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aytən Məmmədova “Sağlam düşüncə, sağlam həyat tərzi sağlam ailənin təməlidir” mövzusunda çıxış edib. Bildirilib ki, ölkəmizdə, o cümlədən muxtar respublikamızda gənc nəslin sağlamlığının qorunması həyata keçirilən sosial-iqtisadi siyasətin başlıca istiqamətlərindən biri kimi daim diqqət mərkəzindədir. Eyni zamanda ana və uşaqların sağlamlığının möhkəmləndirilməsi, sağlam ailənin davamlılığının təmin edilməsi məqsədilə bir sıra mühüm dövlət proqramları qəbul olunub.

Qeyd edilib ki, gənclər millətin sağlamlığı və milli genofondun mühafizəçisidirlər. Ona görə də sağlam mənəviyyat və sağlam həyat tərzi seçmək gənclərin başlıca vəzifələrindən olmalıdır.

Daha sonra “Gənclərin sağlamlığı ilə əlaqədar görülən işlər: reallıqlar və perspektivlər” mövzusunda Naxçıvan Muxtar Respublikasının səhiyyə nazirinin müavini Samrat Gəncəyeva çıxış edərək vurğulayıb ki, bu gün muxtar respublikamızda səhiyyə özünün yeni inkişaf mərhələsini yaşayır. Naxçıvan şəhərində fəaliyyət göstərən xəstəxanalar dünya standartlarına uyğun maddi-texniki bazaya malikdir və burada insanlara müasir səhiyyə xidməti göstərilir. Muxtar respublikamızın elə ucqar kəndi yoxdur ki, orada yeni tikilərək istifadəyə verilən tibb müəssisəsi olmasın və insanlara səhiyyə xidməti göstərilməsin.

Sonra “Sağlam ailə – sağlam gələcəkdir” mövzusunda Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb elmləri üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva çıxış edib.

Sonda gənclərin sualları cavablandırılıb, onlara müvafiq mövzularda hazırlanmış broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## İntellektual oyunlar üzrə çoxnövçülük turniri

Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının yaranmasının 95 illik yubileyinə həsr olunmuş “Muxtariyyət – 95” intellektual oyunlar üzrə çoxnövçülük turnirinin açılış mərasimi keçirilib.

Çoxnövçülük turniri Naxçıvana həsr edilmiş 95 suallıq “Nə? Harada? Nə zaman?”, “Xəmsə” və “Breyn rinq” intellektual oyunlarını özündə birləşdirir.



Turnirdə iştirak edən komandalar Gənclər Fondunun sosial şəbəkə hesablarında açılan elektron qeydiyyat formaları vasitəsilə qeydiyyatdan keçib. Qeyd edək ki, turnir 2 gün davam edəcəkdir.

**✍ Ceyhun MƏMMƏDOV**

## *“Ailə dəyərlərimiz film və fotolarda”* növbəti yaradıcılıq müsabiqəsi elan edilir

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi gənc və digər yaş qruplarından olan yaradıcı və həvəskar şəxslər arasında “Ailə dəyərlərimiz film və fotolarda” IV muxtar respublika yaradıcılıq müsabiqəsi elan edir.

Müsabiqədə Naxçıvan Muxtar Respublikasında yaşayan telejurnalist və rejissorlar, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, həvəskar və professional fotoqraflar iştirak edə bilərlər. Müsabiqə ən yaxşı film və ən yaxşı foto istiqamətləri üzrə keçirilir.

Müsabiqənin keçirilməsində məqsəd gənc ailələrdə ailə dəyərlərinin qorunub saxlanılmasını təbliğ etmək, ailə dəyərlərimizi film və fotolara köçürməklə yaşatmaq, film və fotolar vasitəsilə ailə dəyərlərimizə bağlı olan ailələrin adət-ənənələrini ictimaiyyətə, yeniyetmə və gənclərə təqdim etmək, ailə səadətinin açarı kimi ailə dəyərlərini işıqlandırmaq, gənclərdə və həvəskar şəxslərdə yaradıcılıq qabiliyyətini aşkara çıxarmaq və bədii zövqü inkişaf etdirməkdir.

Müsabiqədə yaradıcı qabiliyyəti olan hər bir gənc və digər yaş qrupundan olan yaradıcı və həvəskar şəxslər iştirak edə bilərlər.

Təqdim olunan materiallar müsabiqənin məqsədinə uyğun olmalı və şərtlərinə cavab verməli, ideya və kompozisiya orijinal olmalı, təqdim olunan iş asan qavranılmalı, təsirli və keyfiyyətli olmalıdır. Bu hallar əsas qiymətləndirmə meyarları sayılır.

Təqdim edilən filmlər CD formatda bir ədəd diskdə və beş dəqiqədən artıq olmalı, fotolar isə 5 ədəddən artıq olmamalı, bir ədəd diskdə CD formatda və ya 20x30 santimetr və daha böyük ölçülü rəngli və ya ağ-qara kağız formatda təqdim edilməlidir.

Mövzular isə aşağıdakı kimidir:

*- xalqımızın ailə dəyərləri, adət-ənənələri;*

*- ənənəvi ailə münasibətləri və ailə mədəniyyətinin təbliği;*

*- ailənin bütövlüyünü təşkil edən amillər və ailənin uzunömürlü olmasının sirləri;*

*- nümunəvi ailələrin təbliği, yeniyetmə və gənclərin yaşlı nəslə ehtiram və hörməti;*

*- ailə quran tərəflərin onun bütövlüyü üçün əzmkarlığı;*

*- qohum və erkən nikahların, zərərli vərdişlərin yaratdığı fəsadlar;*

*- övladını tək böyüdən nümunəvi valideynin fədakarlığı;*

*- qonaqpərvərlik ənənələrimizin təbliği və sair.*

Müsabiqədə iştirak etmək istəyən şəxslər hazırladıqları film və ya fotoları, müvafiq anketi şəxsiyyət vəsiqəsinin surəti ilə birlikdə 2019-cu il iyun ayının 28-dək Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə təqdim etməlidirlər.

Müsabiqəyə təqdim edilmiş film və fotoların qiymətləndirilməsi Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən təsdiq olunmuş münsiflər heyəti tərəfindən keçiriləcək.

Müsabiqənin mükafat fondu aşağıdakı kimidir:

*- Birinci yer (bir nəfər) – diplom və pul mükafatı (200 AZN)*

*- İkinci yer (bir nəfər) – diplom və pul mükafatı (150 AZN)*

*- Üçüncü yer (1 nəfər) – diplom və pul mükafatı (100 AZN)*

*- Həvəsləndirici yer (3 nəfər) – diplom və qiymətli hədiyyə*

Yerlər film və fotolar üçün ayrılıqda təyin edilir.

*Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev 42, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi.*

*Əlaqələndirici şəxs: Tarverdi Məmmədov, telefon: 545-39-75*

*Qeyd: Müsabiqəyə təqdim olunan materiallar geri qaytarılmır.*

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## *“Art Battle”* adlı yeni müsabiqə keçirilib

*Bəhruz Kəngərli adına Sərgi Salonunda Naxçıvanda ilk dəfə olaraq “Art Battle” – I “İncəsənət döyüşü” adlı müsabiqənin qaliblərinin mükafatlandırma mərasimi keçirilib.*



İlkin mərhələsi aprelin 4-də Bəhruz Kəngərli adına Rəssamlar Parkında keçirilən müsabiqədə 20 nəfər gənc rəssam iştirak edib. Günün sonunda təyin edilən münsiflər heyətinin və Naxçıvan şəhər sakinlərinin verdikləri səslərə əsasən qaliblər müəyyən edilib. Belə ki, Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi Mikayıl Rəcəbov və Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Həcər Bəylərova birinci yerə layiq görülüblər. Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi Çinar Hacıyev, “Naxçıvan” Universitetinin tələbəsi Cəlil Xudiyev ikinci, Naxçıvan Dövlət Universitetinin tələbələri Nihad Aslanov və Könül Kazımlı üçüncü olublar.

Qaliblərə, həmçinin digər müsabiqə iştirakçılarına təşkilatçılar tərəfindən diplom və fəxri fərmanlar təqdim olunub.

Müsabiqə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Rəssamlar Birliyinin və Gənclər Fondunun birgə təşkilatçılığı ilə keçirilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Sağlamlıq imkanları məhdud uşaq distant tədrisə cəlb olunub



“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrası istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil və Rabitə və Yeni Texnologiyalar nazirliklərinin birgə təşkilatçılığı ilə Sədərək rayonundan olan sağlamlıq imkanları məhdud uşaq distant tədrisə cəlb edilib. Bu məqsədlə onun yaşadığı mənzilə rabitə və internet xətləri çəkilib, müvafiq texniki avadanlıqlar quraşdırılıb. Bununla yanaşı, sağlamlıq imkanları məhdud Nurgül Quliyeva zəruri dərs ləvazimatları, tədris vəsaitləri, məktəbli geyimi ilə təmin olunub, ona tədris prosesinin gedişinə uyğun müvafiq təlimatlar verilib. Bununla da muxtar respublikada distant tədrisə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşaqların sayı 24-ə çatıb.

Nürgül Quliyevanın valideynləri yaradılan şəraitə görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Nürgül Quliyevanın ölkə xaricində tibbi müayinəsi təşkil olunub. Həmçinin Naxçıvan Uşaq Bərpa Mərkəzində də mütəmadi olaraq fizioterapiya müalicəsi davam etdirilir. Bununla yanaşı, sözügedən ailənin aztəminatlı olması nəzərə alınaraq ötən il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən özünüməşğulluq üzrə dövlət proqramına da cəlb edilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Kiber təhlükələrdən necə qorunaq?

***Bütün dünyada kibercinayətkarlığın artması dövlət idarəçiliyi, bank, nəqliyyat, milli təhlükəsizlik və digər sistemlərin təkmilləşdirilməsini, kibermüdafiə tədbirlərinin genişləndirilməsini aktual edir.***

Kibercinayətin ən çox yayılmış növü “fişinq” adlanan üsuldur. “Fişinq” kibercinayətin xüsusi növüdür və istifadəçiləri aldatma yolu ilə, adətən, maliyyə xarakterli fərdi məlumatları təqdim etməyə məcbur etməklə həyata keçirilir.

Fişinq hücumuna məruz qalmış qurbanların fırıldaqçılara könüllü vəsait ödəməsi üçün məşhur səbəblərdən biri də lotereyada zəmanətli uduş və ya sorğuda iştirak etdikdən sonra nəzərdə tutulmuş mükafatlandırmadır. İstər lotereya, istərsə də sorğu saytlarının işləmə mexanizmi, demək olar ki, eynidir: Öncə istifadəçidən müəyyən proseslər üçün (komisyon ödənilməsi, qəbzin işlənməsi və sair) kiçik miqdarda ödəniş etməsi xahiş olunur, daha sonra isə yüksək məbləğdə mükafatlandırılacağına söz verilir.

Fişinq hücumu, əsasən, messenger və sosial şəbəkələrdə, xüsusilə də “WhatsApp”da çox geniş yayılmışdır. Fırıldaqçılar ənənəvi olaraq istifadəçilərə pulsuz qazanmaq təklifləri və ya mövcud olmayan mükafatlandırma vəd edirlər. Bunun üçün isə cari mesajın dostlar arasında və sosial media hesablarında paylaşılması təklif olunur.

Fişinqin qurbanına çevrilməmək üçün istifadəçilərə sadə qaydalara riayət etmək tövsiyə edilir:

1. Məktub göndərənin ünvanını və məktuba daxil olan linkin doğruluğunu yoxlayın. Güvənmədiyiniz halda, məktubu açmayın. Əgər istəmədən belə, şübhəli sayta daxil olsanız, orada şəxsi məlumatlarınızı daxil etməyin. Şifrənizin fırıldaqçıların əlinə keçdiyini fikirləşirsinizsə, mütləq şifrəni yenisi ilə əvəzləyin.

2. Vacib saytlara daxil olarkən (məsələn, internet bankinq sistemə), müdafiə olunan əlaqədən istifadə edin, mümkün olduqca, ictimai WI-FI sistemindən istifadə etməyin. Bütün bunlar fişinq səhifələrə girmə ehtimalı riskini azaldır. Maksimal güvənlilik üçün şəbəkəyə qoşulmaq üçün xüsusi proqram və həllərdən istifadə edin.

3. Antifişinq texnologiyaları ilə olan qorunma həllərindən istifadə edin. Proqram fırıldaqçıların saytına girərkən sizə xəbərdarlıq edəcək və müvafiq səhifəni bloklayacaq.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən informasiya sistemlərinin və şəbəkələrinin, kompüter avadanlıqlarının və quraşdırılmış proqram təminatının, dövlət təşkilatlarının rəsmi veb-saytlarının təhlükəsizliyinin təmin olunması, bu sahədə təhlillərin aparılması və istifadəçilərin maarifləndirilməsi daim diqqət mərkəzində saxlanılır.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## 2019-cu ilin aprel ayında Məşğulluq mərkəzləri tərəfindən keçiriləcək əmək yarmarkalarının qrafiki

| № | Məşğulluq mərkəzləri | Yarmarkanın keçirildiyi yer | Yarmarkanın keçirilmə tarixi | Yarmarkanın keçirilmə vaxtı |
|---|---|---|---|---|
| 1. | Sədərək rayonu | Sədərək Rayon Mədəniyyət Şöbəsinin binası | 12.04.2019 | $11^{00}$ |
| 2. | Kəngərli rayonu | Kəngərli Rayon Mədəniyyət Şöbəsinin binası | 15.04.2019 | $11^{00}$ |
| 3. | Şahbuz rayonu | Şahbuz Şəhər “Araz” kinoteatrının binası | 16.04.2019 | $11^{00}$ |
| 4. | Culfa rayonu | Məşğulluq Mərkəzinin inzibati binası | 17.04.2019 | $11^{00}$ |
| 5. | Ordubad rayonu | Ordubad Rayon Mədəniyyət Şöbəsinin binası | 18.04.2019 | $11^{00}$ |
| 6. | Babək rayonu | Babək Rayon Mədəniyyət Şöbəsinin binası | 19.04.2019 | $11^{00}$ |
| 7. | Şərur rayonu | Şərur Rayon Olimpiya-İdman Kompleksinin inzibati binası | 22.04.2019 | $11^{00}$ |
| 8. | Naxçıvan şəhəri | Naxçıvan Regional Peşə Tədris Mərkəzi | 23.04.2019 | $11^{00}$ |

### *İtmişdir*

“Gəmiqaya Beton Məmulatları Kompleksi” MMC-yə məxsus CAT-950 H markalı traktorun 185-FX386 nömrəsi itdiyindən etibarsız sayılır.

* * *

Babayeva Üfanə Teyyub qızının adına 1 aprel 2016-cı il tarixdə verilmiş 105013000730 reyestr nömrəli torpaq sahəsinin çıxarışı və plan-ölçüsü itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 245